# Sabahın xeyir, Lənkəran!

(ESSE)

**Xalqımızın müdrik oğlu, dünya şöhrətli siyasətçi, Ulu öndərimiz Heydər Əliyev keçən əsrin 70-80-ci illərində dəfələrlə Lənkəranda, bölgənin digər rayonlarında olmuşdu. 1998-ci ildə prezident seçkiləri ərəfəsində Heydər Əliyev cənub bölgəsinin seçiciləri ilə görüşərkən bu barədə söhbət açmış, gənc yaşlarında Talış dağlarını qarış-qarış gəzdiyini, sərhəd zastavalarında olduğunu söyləmişdi.**

1969-cu ilin iyul ayında Azərbaycanın rəhbəri seçildikdən sonra Heydər Əliyev Lənkərana gündəlik diqqət və qayğı göstərmişdi. Bu müdrik və dahi şəxsiyyətin yüksək qayğısı ilə rayonun iqtisadiyyatı inkişaf etmiş, əhalinin sosial rifahı yaxşılaşmış və Lənkəran respublikamızın abad, yaraşıqlı bir diyarına çevrilmişdir. Lənkəranlılar o işləri bu gün sonsuz iftixarla, böyük məhəbbətlə xatırlayırlar.

Ulu Öndərin Lənkərana səfərlərini əks etdirən tarixlər yaddaşlarda silinməz iz buraxmışdır. ( 30 mart 1973-cü il, 15-16 yanvar 1974-cü il, 28 dekabr 1976-cı il, 8 dekabr 1979-cu il, 30 iyun-1 iyul 1982-ci il, 5 oktyabr 1998-ci il).

**Lənkərana belə səfərlər qalib Prezidentimiz cənab İlham Əliyev tərəfindən də davam etdirilir. Burada ölməz Nizami Gəncəvinin bir şeiri yada düşür:**

Oğul, sözlərimə yaxşı qulaq as!  
Ata nəsihəti faydasız olmaz.  
Dünyanın işini yaxşı düşün sən,  
Nə əksən, onu da sən biçəcəksən.

Çox müdrik kəlam və aforistik fikirlərdən ibarət olan bu şeir parçasında şəkildə təsvir olunan Ulu Öndər elə bil ki, oğlu İlhama bu günkü dünyaya özünün müdrik baxışlarıyla baxmağı tövsiyə edir, oğlu İlham da atasına çox diqqətlə qulaq asır və bu gün onun verdiyi nəsihətlərin müsbət nəticələrini görür.

Bu gün Lənkəran rayonu günbəgün deyil, saatbasaat inkişaf edir. Onun hər bir yerində, hər bir guşəsində qurub-yaradan insanların fədakar əməkləri sayəsində xeyli uğurlar əldə edilmişdir.

**Müəllifini unutduğum bir şair Lənkəran haqqında yazdığı şeirlə yadıma düşür:**

Bol məhsul yetirir bizim tarlalar,  
Yenə hər tərəfdə neçə büsat var.  
Şən nəğmə oxuyur, deyir nəğməkar,  
Yayılıb aləmə şirin mahnılar,  
Zəhmətə alışan əllər var olsun!

Çöllər çiçəklənib zəhmətimizlə,  
Ürəklər sevinir şöhrətimizlə.  
Fəxr edirik Lənkəran şəhərimizlə  
Oturub-yaradan əllər var olsun!

Lənkəran haqqında ən gözəl şeirləri Şəkər Aslan və Həbib Səfərov yazmışlar.

İndi Lənkəran növbəti uğurlu günlərinə hazırlaşır. Artıq 44 günlük Vətən müharibəsi iki ildir ki, qələbəmizlə başa çatıb. Bu müharibədə şəhidlər verilsə də, lənkəranlıların Vətən qarşısında başları ucadır. Lənkəranlılar canını Vətən yolunda fəda edən şəhidlərimizi hörmətlə yad edir, qazilərimizə böyük ehtiramla yanaşırlar.

Dinamik inkişaf bütün sahələrdə özünü bariz şəkildə aydın göstərir. Rayonun təfəkkür fondunu təşkil edən Azərbaycan Yzıçılar Birliyinin Lənkəran bölməsi bu gün bütün bölgələr üzrə qabaqcıllar sırasında gedir. Bölmədə rəngarəng tədbirlər hər həftənin şənbə günləri keçirilir və burada istedad sahibləri öz məharətlərini göstərirlər. Bölməyə rəhbərlik edən yazıçı-publisist Qafar Cəfərli yorulmaq bilmədən çalışır, yazarları bölmə ətrafında sıx birləşdirir.

Rayon Ağsaqqallar Şurasının işində də köklü dəyişikliklər baş verib, onun üzvlərinin tərkibi yeniləşdirilmişdir. Şuranın sədri Eldar Hüseynov tez-tez ictimaiyyət arasında görünür, maraqlı tədbirlər keçirir.



Lənkəran rayonunun müasirləşməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində geniş miqyaslı layihələrin icra edildiyini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Lənkəran rayonunun sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi haqqında imzaladığı sərəncamların mühüm əhəmiyyətini, Lənkəran şəhərində, rayonun qəsəbə və kəndlərində qazlaşdırma prosesinin və yeni su-kanalizasiya layihəsinin sürətlə yerinə yetirildiyini, şəhərin yeni məhəllələrində infrastruktur işlərinin yerinə yetiriləcəyini, onun simasının yeni görkəm alacağını nəzərə alsaq, Lənkəran şəhəri və onun ətrafı demək olar ki, tam müasirləşəcək.

Artıq Lənkərana qızıl payız gəlib. Dəmirağacları rəngbərəng yarpaqlarını xəfif pıçıltıyla ətrafa səpələyir. Uzaqdan görünən əlvan xalçaların naxışlarını xatırladan əzəmətli Talış dağları özünün payız mövsümünü keçirir. Dağ ətəyində dərələrdən burula-burula gurultuyla axan Lənkərançay Xəzərə qovuşmağa tələsir. İnsanlar artıq qış qayğıları ilə yaşayır.

Bir şey təsəllivericidir ki, Lənkəran rayonunun qışdan çıxmaq üçün istilik problemi yoxdur.

Xəzər üzərində ləpələr köpüklənir, kükrəyir, sonra sahili yuyub yenə geriyə çəkilir. Pənbə günəş görünməyə başlayır. Bir anda üfüq boyu hər tərəf işıqlanır. Dənizin üzərində sanki qızılı pullar rəqs edir, günəş öz şəfəqlərini ətrafa səpələyir.

**Doğma Lənkəran, sabahın xeyir! Qoy hər bir açılan səhərin lənkəranlılar üçün uğurlu və düşərli olsun!**

**Səyavuş SÜLEYMANLI,**  
**"Azad Azərbaycan" qəzetinin əməkdaşı, Prezident mükafatçısı**

Azad Azərbaycan.- 2022- ci il.- 17 noyabr.- S. 5.